**Ayxan RÜSTƏMZADƏ,**
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun*
*Dövlət və Konstitusiya hüququ şöbəsinin müdiri,*
*hüquq üzrə elmlər doktoru, dosent*

**Günay QASIMOVA,**
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun*
*Dövlət və Konstitusiya hüququ şöbəsinin elmi işçisi*

**Könül MƏMMƏDOVA,**
*AMEA Hüquq və İnsan Haqları İnstitutunun*
*Dövlət və Konstitusiya hüququ şöbəsinin böyük elmi işçisi*

# VƏTƏNDAŞLARA XİDMƏT VƏ SOSİAL İNNOVASİYALAR AGENTLİYİNİN STRUKTURU VƏ FƏALİYYƏTİNİN KONSTİTUSİON HÜQUQİ ƏSASLARI

Azərbaycan özünün müstəqillik dövründə, xüsusilə ulu öndər Heydər Əliyevin ikinci dəfə respublikamıza rəhbərliyindən sonra bütün sahələrdə öz nümunəsini, dövlət idarəçiliyində demokratik prinsiplərə önəm verilməsini, beynəlxalq birliyə inteqrasiyasını ortaya qoyaraq, dünyaya güclü, müstəqil, müasir, davamlı inkişaf edən bir ölkə kimi açıldı. Həmin vaxtdan başlayaraq nüfuzlu beynəlxalq təşkilatların, inkişaf etmiş dünya dövlətlərinin, araşdırma mərkəzlərinin, tanınmış ekspertlərin, ictimai-siyasi xadimlərin və aparıcı kütləvi informasiya vasitələrinin diqqətini ölkəmizə çəkən də məhz bu amillərdir [1].

Ulu öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dövlətimiz bütün sahələrdə əlaqələrini daha da genişləndirdi

və ikitərəfli, çoxtərəfli əməkdaşlıq sahəsində tərəfdaşlarının sayını getdikcə artırdı.

Elə bunun nəticəsidir ki, bu gün dünyanın müxtəlif dövlətlərində, nüfuzlu beynəlxalq qurumlarda, mötəbər tədbirlərdə, konfranslarda Azərbaycanın inkişaf modeli, Azərbaycan nümunəsi, "Azərbaycan fenomeni" barədə qürurverici şəkildə danışılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hakimiyyətə gəldiyi vaxtdan bu günə kimi hər zaman insan hüquq və azadlıqlarının təmin edilməsi və onlara layiqli həyat şəraitinin bəxş edilməsi istiqamətində çoxsaylı islahatlar həyata keçirmişdir.

Həyata keçirilmiş və keçirilməsi nəzərdə tutulmuş islahatların başlıca məqsədi Azərbaycan Respublikasının dünyanın inkişaf etmiş dövlətləri sırasında irəliləməsinə zəmin yaratmaq, müasirliyimizin, idarəetməmizin, vətəndaşların hüquqlarının qorunmasının, onlara layiqli həyat səviyyəsinin bəxş edilməsinin dövlətin ali məqsədi olmasını bütün dünyaya çatdırmaqdır.

Hal-hazırda həyata keçirilmiş islahatlar öz səmərəli nəticələrini verir. Həmin islahatlardan biri də Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılmasıdır.

Belə ki, ölkə rəhbəri cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında 13 iyul 2012-ci il tarixli Fərman imzaladı [2].

Məhz, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, əhaliyə göstərilən xidmətlərin daha da keyfiyyətli, şəffaf, yeni tərzdə və müasir texnologiyaları tətbiq etməklə həyata keçirilməsi, vətəndaşlara münasibətdə etik davranış qaydalarına əməl edilməsi, hakimiyyətin əsas mənbəyi olan xalqın məmnunluğunun təmin edilməsi məqsədilə Azərbaycan RespublikasınınPrezidenti İlham Əliyevin 2012-ci il 13 iyulda imzaladığı 685 saylı Fərmana əsasən "ASAN xidmət" mərkəzlərinin də strukturuna daxil olduğu Azərbaycan Respublikasının

Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılmışdır.

Qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi qəbul edilmiş Fərmanda göstərilən xidmət mərkəzlərinin vahid şəkildə idarə edilməsini, xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini, nəzarət və qiymətləndirmənin aparılmasını, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyasını, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsini, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

Dövlət Agentliyi öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və öz əsasnaməsini rəhbər tutur.

Dövlət Agentliyi öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər icra hakimiyyəti orqanları, yerli özünüidarəetmə orqanları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Dövlət Agentliyi öz fəaliyyətini qanunun aliliyi, insan hüquqlarının və azadlıqlarının qorunması, şəffaflıq, peşəkarlıq və xidmətdə nizam-intizam prinsipləri əsasında qurur. Dövlət Agentliyi müstəqil balansa, sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir. Dövlət Agentliyinin saxlanması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir [3].

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 706 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Dövlət Agentliyi bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq bir sıra mühüm vəzifələri yerinə yetirir. Bu vəzifələrə: mərkəzlərin fəaliyyətinin təşkilini, onların vahid şəkildə idarə edilməsini, həmin mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini təmin etmək; mərkəzlərdə xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında, yaşayış yeri üzrə qeydiyyatından asılı olmayaraq bütün vətəndaşlar üçün və təqvimin bütün günlərində həyata keçirilməsinə nəzarəti təmin etmək; mərkəzlərdə həyata keçirilən hər bir xidmətin qanuna uyğun həyata keçirilməsinə, keyfiyyətinə və şəffaflığa dair qiymətləndirmələr aparmaq; mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumları əməkdaşlarının etik davranış qaydalarına əməl edilməsinə nəzarəti həyata keçirmək; nəzarət və qiymətləndirmənin nəticələri barədə müvafiq arayış və hesabatlar hazırlamaq, aşkar olunmuş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün müvafiq dövlət qurumlarına icrası məcburi olan tövsiyələr təqdim etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək; mərkəzlərdə fəaliyyət göstərən dövlət qurumlarının əməkdaşları üçün etik kursların təşkilini, vətəndaş axınının idarə olunmasını, vətəndaşları qarşılama, dinləmə, izahetmə bacarıqlarını inkişaf etdirən müxtəlif treninqlərin keçirilməsini təmin etmək və s. aiddir.

Bu vəzifələrlə yanaşı, agentliyin bir sıra hüquqları da vardır ki, bunlara isə: mərkəzlərdə həyata keçirilən xidmətlərin qiymətləndirilməsi məqsədilə hər bir xidmət üzrə monitorinq aparmaq; mərkəzlərdə fəaliyyət göstərəcəkdövlət qurumları nümayəndələrinin təyinatı zamanı onların nəzakətlilik, məsuliyyət, ünsiyyət qurmaq və izah etmə bacarıqlarına dair aidiyyəti orqanlara rəy bildirmək və barəsində müsbət rəy bildirilməyən şəxslərin həmin mərkəzlərdə fəaliyyətinə icazə verməmək; dövlət qurumlarının malik olduqları informasiya sistemlərinə çıxış əldə etmək, dövlət qurumlarıtərəfindən göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı müvafiq proqram təminatını hazırlamaq məqsədilə həmin orqanların xidmət prosesini öyrənmək və müvafiq təkliflər vermək; elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə

bağlı layihələrin təşəbbüsçüsü, icraçısı və ya sifarişçisi kimi çıxış etmək və s. kimi hüquqlar daxildir [4].

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən və vəzifədən azad edilən sədr rəhbərlik edir ki, sədr Dövlət Agentliyinə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır və Azərbaycan Respublikasının Prezidenti qarşısında hesabatlıdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədrinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən birinci müavini və müavini onlara sədr tərəfindən həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması haqqında Fərmanla Azərbaycan Respublikası Prezidenti Administrasiyasına iki ay müddətində Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əsasnaməsinin və strukturunun layihəsini Azərbaycan Respublikası Prezidentinə təqdim etmək və "ASAN xidmət" mərkəzlərinin nümunəvi əsasnaməsinin layihəsini və xidmət mərkəzlərində dövlət orqanları tərəfindən göstərilən xidmətlərin növləri barədə təkliflərini Azərbaycan Respublikası Prezidentinə təqdim etmək tapşırılmışdır.

Həmçinin, Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini və "ASAN xidmət" mərkəzlərini bina və zəruri avadanlıqla təmin etmək, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təşkili ilə bağlı maliyyə və maddi-texniki təminat məsələlərinin, habelə fərmandan irəli gələn digər məsələlərin həlli tapşırılmışdır.

O cümlədən, Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi yanında Elektron Hökumət üzrə Dövlət Agentliyinin yaradılması və Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli, 1015 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin strukturu"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Prezidentinin 2012-ci il 18 aprel tarixli 2187 nömrəli Sərəncamı ləğv edilmişdir [5].

Dövlət Agentliyinin fəaliyyət istiqamətlərini aşağıdakı kimi qeyd etmək olar: mərkəzlərin vahid şəkildə idarə edilməsini və həmin mərkəzlərdə fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsini təmin edir; mərkəzlərdə göstərilən xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirilməsinə nəzarət edir; mərkəzlərdə həyata keçirilən hər bir xidmətin qanuna uyğun həyata keçirilməsinə, keyfiyyətinə və şəffaflığa dair qiymətləndirmələrin aparılmasını təmin edir; mərkəzlərdə fəaliyyət göstərən dövlət orqanlarının əməkdaşlarının etik davranış qaydalarına əməl edilməsinə nəzarət edir, etik kursların təşkilini, vətəndaş axınının idarə olunması, vətəndaşları qarşılama, dinləmə, izahetmə bacarıqlarını inkişaf etdirən müxtəlif treninqlərin keçirilməsini təmin edir; dövlət orqanları tərəfindən göstərilən hər bir xidməti təhlil edərək, onların elektron formada həyata keçirilməsi üçün müvafiq proqram təminatının, informasiya sistemlərinin, məlumat bazalarının və elektron xidmətlər reyestrinin yaradılması və təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirir.

Dövlət Agentliyi mərkəzlərdə xidmətlərin operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında, yaşayış yeri üzrə qeydiyyatından asılı olmayaraq bütün vətəndaşlar üçün və təqvimin bütün günlərində həyata keçirilməsinə nəzarəti təmin edir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində qeyd olunanlarla yanaşı, vətəndaşlara xidmət göstərən vahid telefon nömrəsi ilə təchiz edilmiş "Çağrı" mərkəzi yaradılmışdır və onun fəaliyyəti də məhz agentlik tərəfindən təmin edilir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi dövlət orqanları tərəfindən göstərilən xidmətlərin inkişafı və elektron təşkili məqsədilə aşağıdakıları həyata keçirir: dövlət orqanlarının malik olduqları informasiya sistemlərinə çıxış əldə etmək, göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı müvafiq dövlət orqanları ilə birgə tədbirlər görmək, proqram təminatını hazırlamaq məqsədilə həmin orqanların xidmət prosesini öyrənmək və müvafiq təkliflər vermək; elektron xidmətlərin göstərilməsi üzrə texniki normaların, standartların və tələblərin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq; dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmələr aparmaq və nəticəsi barədə hesabatlar hazırlamaq; elektron xidmətlərin göstərilməsi üzrə dövlət orqanlarına metodik və əməli köməklik göstərmək; dövlət orqanlarının informasiya sistemlərinin, elektron xidmətlərin və elektron xidmətlər reyestrinin yaradılması və onların fəaliyyətinin təhlükəsizliyi ilə bağlı tədbirlər görmək; "ASAN xidmət" mərkəzləri dövlət qulluqçularının fəaliyyətində əhaliyə münasibətdə vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində yeni yanaşmanın formalaşdırılmasına, ölkədə dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsinə xidmət edir [6].

Həmçinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması barədə Fərmanda qeyd olunub ki, dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən "ASAN xidmət" mərkəzləri yaradılsın və həmin mərkəzlərdə aşağıdakıların həyata keçirilməsi nəzərdə tutulur: xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında, yaşayış yeri üzrə qeydiyyatından asılı olmayaraq bütün vətəndaşlar üçün və təqvimin bütün günlərində həyata keçirilsin; vətəndaşların bilavasitə, telefon və ya internet vasitəsilə müraciətləri əsasında, səyyar və digər üsullarla xidmətlərin həyata keçirilməsi təmin edilsin; fəaliyyət göstərəcək dövlət orqanlarının əməkdaşları üçün etik kursların təşkili, vətəndaş axınının idarə olunması, vətəndaşları qarşılama, dinləmə,

izahetmə bacarıqlarını inkişaf etdirən müxtəlif treninqlərin həyata keçirilməsi təmin edilsin [7].

Mövcud Fərmana əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan “ASAN xidmət” mərkəzlərində dövlət orqanları tərəfindən vətəndaşlara aşağıdakı xidmətlər göstərilir: vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı: doğumun qeydə alınması; ölümün qeydə alınması; nikahın qeydə alınması; nikahın pozulmasının qeydə alınması; övladlığa götürmənin qeydə alınması; atalığın müəyyən edilməsinin qeydə alınması; adın, ata adının və soyadın dəyişdirilməsinin qeydə alınması; vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında şəhadətnamələrin (təkrar şəhadətnamələrin) verilməsi; notariat fəaliyyəti; şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi; ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi; sürücülük vəsiqələrinin dəyişdirilməsi; məhkumluq barədə arayışların verilməsi; daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı; mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi; daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi; fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi; kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı; hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi; gömrük bəyannamələrinin, gömrük rəsmiləşdirilmələri üçün sənədlərin qəbulu; Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə, habelə daimi yaşamaq üçün immiqrant statusunun əldə edilməsi ilə bağlı sənədlərin verilməsi; əmək pensiyalarının təyin edilməsi; dövlət orqanlarının göstərdikləri bütün xidmətlər üzrə informasiya xidmətinin həyata keçirilməsi; yaşayış yeri üzrə qeydiyyata alındığı və ya qeydiyyatdan çıxarıldığı hallarda çağırışçıların və hərbi vəzifəli vətəndaşların hərbi qeydiyyata alınması və hərbi qeydiyyatdan çıxarılması; xaricdə istifadə üçün nəzərdə tutulan sənədlərə dair

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən apostil verilməsi üçün sənədlərin qəbulu [8].

Onu da qeyd etmək lazımdır ki, "ASAN xidmət" mərkəzlərində dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərə görə ödənilən dövlət rüsumlarının 30 faizinin həmin mərkəzlərdə saxlanılması və bu vəsaitin mərkəzlərdə fəaliyyət göstərən dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsinə yönəldilməsi nəzərdə tutulur.

Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin hesabına dövlət rüsumlarından daxil olan vəsaitdən istifadə qaydası haqqında 21 dekabr 2015-ci il tarixli Fərman qəbul edilmişdir.

Həmin Fərmanda qeyd olunur ki, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətləri və hüquqi hərəkətləri təşkil edən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həmin Qanunun 4.1-ci maddəsinə əsasən öz xəzinə hesabına dövlət rüsumlarından daxil olan vəsaitdən Agentliyin və "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən digər dövlət orqanlarının işçilərinin maddi təminatını yaxşılaşdırmaq məqsədi ilə istifadə qaydasını müəyyən edir. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-ci maddəsində nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, habelə dövlət notariat kontorlarının xəzinə hesabına köçürülməsi, istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi qaydaları qüvvəyə minənədək dövlət rüsumlarından daxil olan vəsaitdən qüvvədə olan aktlar əsasında istifadə edilir.

Eləcə də sözügedən Fərmanla Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə isə tapşırılıb ki, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin [9].

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə yeni səlahiyyət verilib. Belə ki, bu səlahiyyətlər nəticəsində artıq Agentlik dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrini formalaşdıracaq və bu da öz növbəsində vətəndaşlara daha operativ şəkildə xidmət göstərilməsinə şərait yaradacaq.

Azərbaycan Respublikası Nazirlər Kabineti bu məqsədlə "Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları"nı hazırlayaraq təsdiq edib.

Qəbul edilmiş Qaydada əks olunur ki, "Elektron Reyestrin formalaşdırılmasını, aparılmasını, istifadəsini, mühafizəsini və bu istiqamətdə əlaqələndirməni təmin edən səlahiyyətli orqan Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyidir [10].

Reyestrin operatoru Qaydaya müvafiq olaraq aşağıda göstərilən funksiyaların həyata keçirilməsini təmin edir:  Elektron Reyestrin aparılması üzrə Elektron Reyestrin fəaliyyətinin təşkili, idarə olunması və inkişaf etdirilməsi, Elektron Reyestrlə bağlı metodiki, informasiya-linqvistik, proqram-texniki dəstəyin təmin edilməsi, dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlər barədə məlumatların yoxlanıldıqdan sonra Elektron Reyestrə daxil edilməsinə və yenilənməsinə nəzarət, xidmətlərlə bağlı Elektron Reyestrə daxil edilmiş məlumatların monitorinqi və təhlillərin aparılması,  xidmət sahələri üzrə standartların müəyyən edilməsi ilə bağlı təkliflərin verilməsi,  yeni növ xidmətlərin yaradılması, həmçinin xidmətlərin birləşdirilməsi, ayrılması və digər üsullarla asanlaşdırılması (sadələşdirilməsi) barədə təkliflərin verilməsi, Elektron Reyestrə barəsində məlumat daxil edilmiş xidmətlər haqqında statistik məlumatların və analitik hesabatların hazırlanması, xidmətlərin elektron qaydada təşkili və həyata keçirilməsi üçün vacib olan informasiya sistem və ehtiyatlarının inteqrasiyasının təmin edilməsi ilə bağlı təkliflərin verilməsi,  eyni məzmunlu xidmətlərin aradan qaldırılması ilə bağlı təkliflərin verilməsi,  Elektron Reyestrə daxil edilmiş məlumatların arxivləşdirilməsi və saxlanılması,  Elektron Reyestrin internet portalının yaradılması və aktuallığının təmin edilməsi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" 2016-cı il fevralın 3-də imzaladığı Fərmana əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində Apellyasiya Şurası yaradılmışdır [11].

Qeyd edək ki, Şuranın yaradılmasında əsas məqsəd sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin Dövlət Agentliyinə daxil olan təkrar şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsidir [12].

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində Apellyasiya Şurasına Dövlət Agentliyinin sədr müavini rəhbərlik edir və Apellyasiya Şurasının tərkibinə Agentliyin və onun tabeliyindəki "ASAN xidmət"in vəzifəli şəxsləri daxildir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin strukturunu aşağıdakı kimi qeyd etmək olar: Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aparatı (şöbələr və sektorlar), Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan "ASAN xidmət" mərkəzləri.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin aparatı və onun strukturuna daxil olan qurumlar və tabeliyində olan digər qurumlar (hüquqi şəxslər, təşkilatlar və sair) Dövlət Agentliyinin vahid sistemini təşkil edir. Belə ki, Dövlət Agentliyi öz fəaliyyətini bilavasitə həmin qurumlar vasitəsilə həyata keçirir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin strukturu və işçilərinin say tərkibi Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilir. Dövlət Agentliyinin strukturuna daxil olmayan

tabeliyindəki qurumların siyahısını isə Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.

"ASAN xidmət" qısa müddət ərzində cəmiyyətdə çox böyük rəğbət qazanıb, ictimai xidmətlər sektorunda inqilab yaradıbdır. Hər bir dövlət orqanı belə şəffaf işləməlidir və cəmiyyət də bunu görür, insanlar da bunu görürlər. Ona görə də bu xidmətin fəaliyyətini bəyənirlər. Bu gündən sonra Qəbələ sakinləri və ətraf rayonlarda yaşayanlar bu xidmətdən istifadə edəcəklər və biz gələcəkdə "ASAN xidmət"in funksiyalarını daha da genişləndirəcəyik. Harada ki vəziyyət hələ bizi qane etmir, harada ki xoşagəlməz hallar var, biz o funksiyaları "ASAN xidmət" vasitəsilə təşkil edəcəyik" [13].

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin strukturu və fəaliyyəti araşdırılarkən aşağıdakı nəticələrə gəlinir ki, ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnno-vasiyalar üzrə Dövlət Agentliyininin yaradılması birbaşa olaraq vətəndaş-lara müasir texnologiyalar üzrə xidmətlərin göstərilməsi ilə əlaqədardır; Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin müasir texnologiyalardan istifadə etməklə nəzdində fəaliyyət göstərən "ASAN xidmət" qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara müxtəlif sahələr üzrə xidmətlər həyata keçirir; "ASAN xidmət" mərkəzlərinin yaradılması ilə artıq vaxt itkisinə yol vermənin, kobud rəftarlara məruz qalmağın, süründürməçiliyə salınmağın qarşısı alınmışdır; Ən başlıca məsələ isə odur ki, bütün dünya dövlətlərinin hamılıqla mübarizə apardığı korrupsiyanın qarşısının alınması, sağlam vətəndaş cəmiyyətinin bərqərarar olması üçün "ASAN xidmət" mərkəzi öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. http://www.xalqqazeti.com/az/news/politics/74058
2. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət

orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2012-ci il tarixli Fərmanı. Bakı: Qanun, 2012.
3. http://e-qanun.gov.az/framework/24212
4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı. Bakı: Qanun, 2012.
5. "Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin strukturu"nda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 18 aprel tarixli 2187 nömrəli Sərəncamı. Bakı: Qanun, 2012.
6. http://vxsida.gov.az/redirect/index/cat_id/81/MainOrNot/0
7. https://apa.az/daxili_siyaset/azerbaycan-prezidenti-yaninda-vetendaslara-xidmet-ve-sosial-innovasiyalar-uzre-dovlet-agentliyi-yaradilib.html
8. http://xeberler.az/new/details/prezident-yaninda-vetendaslara-xidmet-ve-sosial-innovasiyalar-uzre-dovlet-agentliyi-yaradilib—6809.htm
9. http://matbuat.az/news/323444/azerbaycan-respublikasinin-prezidenti-yaninda-vetendaslara-x.html
10. Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlərin Elektron Reyestrinin aparılması Qaydaları". Bakı: Qanun, 2017.
11. "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" 03 fevral 2016-cı il tarixli Fərman. Bakı: Qanun, 2016.
12. https://report.az/daxili-siyaset/vetendaslara-xidmet-ve-sosial-innovasiyalar-uzre-dovlet-agentliyinde-apelyasiya-surasi-yaradilib/
13. https://apa.az/daxili_siyaset/prezident-ilham-eliyev-asan-xidmet-ictimai-xidmetler-sektorunda-inqilab-yaradib.html